**04.10.2023: xəbər**

**Khazar University staff members at Vilnius Gediminas Technical University**

On September 2023, 25-27, Khazar University staff members – Dr.Jeyhun Mammadov, dean of the School of Economics and Management, Dr. Bahadir Baysal, coordinator of the Department of Economics and Management, Sabina Allahveranova, manager of the Career Center, Dr. Bayram Guliyev and Kamala Mustafayeva, lecturers of the Department of History and Archeology, visited Vilnius Gediminas Technical University as part of the ERASMUS+ PICASP project.

The main objectives of the PICASP ( Pilot Courses in Practice Enterprise to implement the University-Enterprise Cooperation for the development of Caspian Area) project are to develop new teaching methodologies with the Practice Enterprise, to develop courses on entrepreneurship and SME management, to enhance the exchange of best practices with European Union partners and to enforce the involving of stakeholders in the curriculum development and the employment of graduates.

Khazar University staff attended presentations on the following topics: "Groundbreaking technologies in tourism", "Tourism Trends: The Latest Opportunities for the Tourism Industry", "Overview of the Lithuanian heritage protection system", "History of Lithuanian Jews - cultural heritage and history", "Possibilities of applying virtual tourism in Lithuania". They also visited the Palace of the Grand Dukes of Lithuania, the Gediminas Castle Tower, the National Museum of Lithuania, the ancient city of Vilnius and the Uzupis Republic.

During the management meeting held on the last day, Dr. Jeyhun Mammadov gave detailed information about the implementation of the project activities at Khazar University and the practical work done in accordance with the goals set and the prospects for its implementation in the future. The meeting ended with a discussion of current results, needs, expectations and future plans.

**Xəzər Universitetinin əməkdaşları Vilnüs Gediminas Texniki Universitetində**

2023-cü il sentyabrın 25-27-də Xəzər Universitetinin əməkdaşları - İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr. Bahadır Baysal, Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova, Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Bayram Quliyev və Kəmalə Mustafayeva ERASMUS+ PICASP layihəsi çərçivəsində Vilnüs Gediminas Texniki Universitetində olublar.

PICASP layihəsinin (Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən təcrübə müəssisələri pilot kursları) əsas məqsədləri təcrübə müəssisəsi ilə yeni tədris metodları hazırlamaq, sahibkarlıq və KOB-ların idarə edilməsi üzrə kurslar təşkil etmək, Avropa İttifaqı tərəfdaşları ilə təcrübə mübadiləsini artırmaq və maraqlı tərəflərin kurikulumların hazırlanmasında və məzunların məşğulluğunda iştirakını təmin etməkdir.

Xəzər Universitetinin əməkdaşları “Turizmdə təməlqoyma texnologiyaları”, “Turizm trendləri: Turizm sənayesi üçün ən son imkanlar”, “Litva irsinin qorunması sisteminə baxış”, “Litva yəhudilərinin tarixi- mədəni irsi və tarixi”, “Litvada virtual turizmin tətbiqi imkanları” mövzularında ardıcıl davam edən təqdimatlarda iştirak ediblər. Onlar, həmçinin, Litva Hersoqlarının Sarayı, Gediminas Qala Qülləsi, Litva Milli Muzeyi, Vilnüs Qədim Şəhəri və Uzupis Respublikasına təşkil edilən ekskursiyada olublar.

Sonuncu gün təşkil olunan idarəetmə görüşündə Dr. Ceyhun Məmmədov Xəzər Universitetində layihə fəaliyyətlərinin həyata keçirilməsi və qarşıya qoyulan məqsədlərə uyğun görülən praktiki işlər və gələcəkdə reallaşdırılması düşünülən perspektivlər haqqında geniş məlumat vermişdir. Görüş cari nəticələrin, ehtiyacların, gözləntilərin və gələcək planların müzakirəsi ilə başa çatıb.






Cultural Tourism


Average Happiness for Twitter